Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

## I CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2016

**AZAD MƏMMƏDOV**
*(12.12.1964, Şuşa).*
*Aktyor*



Azad Əşrəf oğlu Məmmədov Niyazi adına Uşaq İncəsənət məktəblərini bitirib. 1980 – 1984-cü illərdə Mir Möhsün Nəvvab adına Şuşa Musiqi Texnikumunun kamança sinfində təhsil alıb. Sonra burada müəllim işləyib. 1988 – 1993-cü illərdə Azərbaycan Dövlət İncəsənət Universitetinin özfəaliyyət teatr kollektivinin rəhbəri fakültəsində qiyabi təhsil alıb. 1990-cı ildən Şuşa Dövlət Musiqili Dram Teatrında aktyor işləyir. 1994-cü ildən həm də direktor müavinidir. 25 iyun 2013-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

*Teatrda ifa etdiyi əsas rollar:* Hacı Salah, Hatəmxan ağa («Lənkəran xanının vəziri» və «Müsyö Jordan və dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Vəli («Arşın mal alan», Üzeyir bəy Hacıbəyli), Surxay («Aydın», Cəfər Cabbarlı), Qulu («Nənəmin şahlıq quşu», Əliağa Kürçaylı və Vasif Adıgözəlov), Hilal («Durna», Süleyman Rüstəm və Səid Rüstəmov), Fərəc («Sən həmişə mənimləsən», İlyas



*«Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə. Xacə Məsud – Azad Məmmədov*

Əfəndiyev), Doppa Dadaş («Şuşa dağlarını duman bürüyüb», Elçin), Səfər bəy, Dəllək Haqverdi («Millət dostları» və «Dağılan tifaq», Əbdürrəhim bəy Haqverdiyev), Baxşı («Kamança», Cəlil Məmmədquluzadə), Rüstəm («Bayramın birinci günü», Nazim Hikmət), Qoca («Marqaritka», Arman Salakru), Səlim («Xəlifə leylək», Vilhelm Qauf), Dahi («Sehrli kreslo», Fridyeş Karrinti).